AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT IQTISAD UNIVERSITETI

*Əlyazması hüququnda*

**EMİN MİRDAMƏD OĞLU SADIQOV**

# İNVESTİSİYALARIN MALİYYƏLƏŞDİRİLMƏSİNİN SƏMƏRƏLİYİNİN YÜKSƏLDİLMƏSİ

**5308.01 – "Ümumi iqtisadiyyat"**

**iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya işi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor **Sadıq Vəli oğlu Salahov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor **Bəyalı Xanalı oğlu Ataşov**

iqtisad üzrə fəlsəfə doktoru **Sadıq Binyanin oğlu Nəzərəliyev**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

Dissertasiyanın müdafiəsi «_19_» __iyun____ 2013-cü il saat $14^{00}$-da Azərbaycan Dövlət İqtisad Universitetinin D 02.051 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universitetinin dissertasiya şurası.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «__» __may_______ 2013-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi, i.f.d.** **dos.Z.İ.Mustafayeva**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

***Mövzunun aktuallığı.*** Transformasiya dövrü üçün investisiya problemlərinin kəskinləşməsi, maliyyələşmə mənbələrinin imkanlarının məhdudluğu səciyyəvidir. Digər postsovet ölkələr kimi, Azərbaycanda da həmin problemlərin əsasında - ənənəvi iqtisadi əlaqələrini itirmiş müəssisələrin öz fəaliyyətini dayandırması, işsizliyin yaranması, inflyasiyanın yüksək həddə çatması, yoxsulluğun artması və s. dururdu. Bu dövrdə Azərbaycanın məcburən müharibəyə cəlb olunması və 1 milyondan çox qaçqının və məcburi köçkünün olması ağır iqtisadi vəziyyətdə olan ölkənin vəziyyətini daha da çətinləşdirmişdi.

Dünya təcrübəsindən məlumdur ki, bir çox ölkələr aqrar sahədə yaranmış böhran vəziyyətinin aradan qaldırılmasında xarici kapitaldan geniş istifadə etmişlər. Belə ki, ölkədə, əhalinin, xüsusən kənd əhalisinin yoxsulluq səviyyəsində yaşaması və büdcə kəsirinin həddən artıq böyük olması şəraitində nə dövlət və nə də yerli sahibkarlar hər hansı səmərəli tədbir görə bilmirlər. Belə bir şəraitdə xarici kapitalın cəlb olunması və istifadəsi həm ölkəyə yeni texnalogiyaların gətirilməsi, həm də yeni iş yerlərinin açılması deməkdir. Əlbəttə, kənd təsərrüfatının bütün əsas problemlərini xarici investisiyaların sayəsində həll etmək cəhdləri uğursuzluqla nəticələnməklə yanaşı, milli iqtisadi təhlükəsizlik prinsiplərinə də ziddir. Odur ki, iqtisadi inkişaf tempi yüksəldikcə, daxili maliyyə mənbələrini fəallaşdırmaq lazım gəlir. Hazırda daxili maliyyə mənbələrinin investisiya fəaliyyətinə cəlb olunması çox mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan zəngin karbohidrogen ehtiyatları potensial xarici investorların maraqlandırır. Lakin onları milli maraqlar çərçivəsində əməkdaşlığa cəlb etmək olduqca çətin və mürəkkəb prosesdir. Ümummilli liderimiz Heydər Əliyevin titanik əməyi sayəsində 1994-cü ilin sentyabrında imzalanan "Əsrin müqaviləsi" ilə gənc dövlətin yeni neft strategiyasının təməli qoyuldu. Heydər Əliyevin banisi olduğu yeni neft doktrinası Azərbaycanın dünya iqtisadi sis-

teminə inteqrasiyası yolunda aparıcı qüvvəyə çevirdi. Bununla belə ulu öndər böyük uzaqgörənliklə qeyd edirdi ki, yanacaq – energetika kompleksinin yüksək gəlirli sahə olması iqtisadiyyatın qeyri-neft bölməsinə investisiyaların yönəldilməsini ləngitməməlidir. “Holland sindromu”nun qarşısının alınması üçün iqtisadiyyatın şaxələndirilməsi, xüsusilə aqrar sahənin investisiyalaşdırılması prioritet istiqamət kimi müəyyənləşdirildi. Kənd təsərrüfatına və onunla sıx əlaqələrə malik sahələrə investisiyaların cəlb olunması üçün əlverişli investisiya mühiti yaratmaq lazımdır. Əlverişli investisiya mühitini isə,ilk növbədə vergi bazası, infrastruktur, normativ-hüquqi təminat və digər bir sıra amillər şərtləndirir.

İnvestisiya siyasətinin həyata keçirilməsində mövcud hüquqi baza, qəbul olunmuş qanunlar, ilkin investisiya axınına mane olan bürokratik əngəlliklərin aradan qaldırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin müvafiq qərarları, Azərbaycanın iqtisadi potensialının xarakteristika, investorlara, o cümlədən xarici investorlara dövlətin tərəfindən verilmiş təminatlar mühüm rol oynayır.

Hazırda aqrar sahədə investisiya siyasətinin həyata keçirilməsində qarşıda duran ən mühüm vəzifələr – regional investisiya cəlbediciliyinin yüksəldilməsi, ərzaq təhlükəsizliyinin təminatına yönəlik investisiya layihələrinin hərtrərəfli əsaslandırılması, investisiya proseslərinin idarə edilməsinin yaxşılaşdırılması, respublikanın aqrar rayonlarının sosial-iqtisadi inkişafının imkanlarını özündə əks etdirən investisiya xəritələrinin hazırlanması və investisiyalardan istifadə səmərəliliyinin yüksəldilməsidir. Qeyd olunan problemlərin təxirəsalınmadan həlli zəruriliyi dissertasiya mövzusunun aktuallığını şərtləndirmişdir.

***Problemin öyrənilməsi səviyyəsi.*** İnvestisiyaların maliyyələşdirilməsi, o cümlədən bu prosesin aqrar sahədəki problemlərinə həsr olunmuş fundamental tədqiqatlarda Azərbaycan alimlərinin töhfəsi böyükdür. Belə ki, qeyd olunan problemin nəzəri, metodoloji və təcrübi cəhətləri Z.Ə.Səmədzadə, A.A.Nadirov, Ş.Ə.Səmədzadə, Ş.H.Hacıyev, A.F.Musayev, T.Ə.Quliyev, C.M.Muradov, V.T.Novruzov, S.V.Salahov, B.X.Ataşov, A.B.Abbasov,

R.T.Həsənov, M.M.Sadıqov və başqaları, xarici ölkələrdən C.M.Keyns,Pol A.Samuelson, C.Tobin, V.D.Norbhaus, C.V.Klark, R.Makkonell, S.L.Bryu, V.V.Boçarov, V.Q.Zolotoqorov, M.N.Brodskiy, E.A.Zvonova, M.İ.Knış, K.P.Yanovskiy, E.M.İlin-skaya tərəfindən araşdırılmış və öz əsərlərində bu problemə əhəmiyyətli dərəcədə yer vermişlər.

***Tədqiqatın məqsəd və vəzifələri.*** Tədqiqatın əsas məqsədi investisiyaların maliyyələşdirilməsi məsələlərinə dair elmi baxış-ların və xarici təcrübənin ümumiləşdirilməsi əsasında aqrar sahəyə investisiyaların maliyyələşdirilməsi vəziyyətini qiymətləndirmək-dən, investisiyaların qoyulmasına təsir edən amillərin aşkarlanma-sından və onların səmərəliyinin yüksəldilməsi istiqamətində tək-liflərin əsaslandırılmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün tədqiqatın vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- investisiyalardan istifadənin və investisiya proseslərinin tənzimlənməsinin nəzəri-metodoloji və normativ-hüquqi əsaslarını təhlil etmək və ümumiləşdirmək;
- mövcud investisiya mühitini və aqrar sahəyə investisiya-ların maliyyələşdirilməsi imkanlarını səciyyələndirmək;
- kənd təsərrüfatında investisiya layihələrinin kreditləşdiril-məsi vəziyyətini qiymətləndirmək;
- sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi və inves-tisiya fəaliyyətinin maliyyələşdirilməsi perspektivlərinin müəyyən-ləşdirilməsi;
- aqrar investisiya fəaliyyətinin maliyyələşdirilməsi prioritet-lərinin əsaslandırılması;
- investisiyaların maliyyələşdirilməsi və onlardan istifadə sə-mərəliliyinin yüksəldilməsinə dair təkliflər hazırlamaq.

***Tədqiqatın predmetini*** aqrar sahədə investisiya mühiti, ora yönəldilən investisiyaların maliyyələşməsi mənbələrindən istifadə məsələləri təşkil edir.

***Tədqiqatın obyekti*** kimi sahəyə investisiya qoyuluşunu hə-yata keçirən qurumların və dövlət strukturlarının fəaliyyəti gö-türülmüşdür.

***Tədqiqatın nəzəri-metodoloji əsasları.*** Tədqiqatın məqsəd və vəzifələrinə uyğun onun metodu və üsulu seçilmişdir. Tədqiqatın nəzəri-metadoloji əsaslarını iqtisadçı alimlərin müvafiq istiqamətdə aparılmış tədqiqatları, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış və təsdiq edilmiş metodoloji-normativ aktlar təşkil edir.

***Tədqiqatın informasiya bazasını*** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin illik hesabatları, Kənd Təsərrüfatı, İqtisadi İnkişaf və Maliyyə Nazirliklərinin materialları, Milli Məclisin investisiya, büdcə və vergi siyasəti sahəsində qanunvericilik materialları, İnternet şəbəkəsində mövzuya uyğun informasiya resursları təşkil edir.

***Tədqiqatın elmi yeniliyi*** investisiyaların maliyyələşdirilməsinin nəzəri və praktiki problemlərinə kompleksli və sistemli yanaşmadan ibarətdir. Elmi yeniliyi müəyyən edən əsas nəticələr:

- investisiyaların, o cümlədən aqrar sahədə maliyyələşdirilməsinin nəzəri və metodoloji müddəaları müəyyənləşdirilmişdir;
- investisiyaların maliyyələşdirilməsi mənbələri səciyyələndirilmiş və onların aqrar iqtisadiyyata təsiri qiymətləndirilmişdir;
- aqrar sahədə investisiya mühitinin formalaşması xüsusiyyətləri aşkar olunmuş, investisiya layihələrinin maliyyələşdirilməsi və kreditləşdirilməsi vəziyyəti qiymətləndirilməklə inkişaf meylləri xarakterizə olunmuşdur;
- aqrar sahənin investisiya cəlbediciliyini şərtləndirən amillər aşkar olunmuş;
- investisiya fəaliyyətinin maliyyələşdirilməsinin perspektiv parametrləri müəyyən edilmiş;
- investisiya fəaliyyətinin maliyyələşdirilməsinin prioritet ləri əsaslandırılmış və aqrar sahədə investisiyalardan istifadə səmərəliliyinin yüksəldilməs inə dair təkliflər əsaslandırılmışdır.

***Tədqiqatın praktik əhəmiyyəti.*** Əldə edilən nəticələr, əsaslandırılmış təkliflər və tövsiyələr aqrar iqtisadiyyata yönəldilmiş

investisiyaların əsas maliyyəlişdirilmə mənbələrinin müəyyənləşdirməsi, investisiyaların maliyyələşdirilməsinin səmərəliyinin qiymətləndirilməsi, əlverişli investisiya mühitinin formalaşması və sahədə investisiya fəaliyyətinin maliyyələşdirilməsinin perspektiv imkanlarının qiymətləndirilməsi məsələlərinin həllində istifadə oluna bilər.

***Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadəsi.*** Dissertasiya işinin əsas müddəaları, irəli sürülmüş əməli təkliflər və tövsiyələr 2010-2012-ci illərdə müxtəlif səviyyəli konfranslarda və seminarlarda, o cümlədən, “Aqrar təhsil sistemində innovasiya texnologiyalarının tətbiqi və beynəlxalq əməkdaşlıq formaları” mövzusunda beynəlxalq elmi-praktik konfransda (Gəncə, 2010), “Aqrar iqtisadiyyat: müstəqilliyin 20 ilində” mövzusunda beynəlxalq elmi-praktik konfransda (Bakı, 2011), “İkinci Uluslararası Türk Coğrafiyasında UTRS (Uluslararası finansal raporlama standartları)” simpoziumunda (Trabzon, Türkiyə), “Aqrar iqtisadiyyat və innovasiyalı inkişaf” mövzusunda ümumrespublika elmi-praktik konfransında, (Gəncə, 2012) məruzə edilmişdir. Dissertasiyanın əsas müddəa və nəticələri AMEA İqtisadiyyat İnstitutu tərəfindən istifadə üçün qəbul edilmişdir (12 sentyabr 2012-ci il tarixli 043/392-0 saylı arayış).

***Tədqiqatın nəticələri üzrə dərc edilmiş əsərlər.*** Dissertasiya mövzusu üzrə ümumi həcmi 3,8 çap vərəqi olan 9 məqalə və tezis, o cümlədən 3-ü xaricdə dərc olunmuşdur.

***Dissertasiyanın həcmi və strukturu.*** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya 130 səhifədən ibarət olub, 17 cədvəl və 9 şəkli əhatə edir.

## MÜNDƏRİCAT

**Giriş**

**Fəsil 1. Aqrar sahədə investisiya fəaliyyətinin maliyyələşdirilməsinin nəzəri əsasları**

1.1. İnvestisiyaların maliyyələşdirilməsinin elmi-nəzəri məsələləri

1.2. Aqrar sahədə investisiya fəaliyyətinin maliyyələşdiril-

məsinin forma və üsulları
1.3. İstifadə olunmuş investisiyaların aqrar iqtisadiyyatın inkişafına təsirinin qiymətləndirilməsi
**Fəsil 2. Azərbaycanda investisiya mühiti və investisiyaların maliyyələşdirilməsi mənbələri**
2.1. İnvestisiya mühiti və aqrar sahədə onun formalaşması
2.2. Azərbaycanda investisiyaların maliyyələşdirilməsinin struktur təhlili
2.3. Kənd təsərrüfatında investisiya layihələrinin kreditləşdirilməsi vəziyyəti
**Fəsil 3. Aqrar sahədə investisiyaların maliyyələşdirilməsinin perspektivləri və onlardan istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri**
3.1. Aqrar sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi və investisiya fəaliyyətinin maliyyələşdirilməsi perspektivləri
3.2. İnvestisiya fəaliyyətinin maliyyələşdirilməsinin prioritet istiqamətləri
3.3. İnvestisiyalardan istifadə səmərəliliyinin yüksəldilməsi istiqamətləri
**Nəticə**
**İstifadə olunmuş ədəbiyyat**

## TƏDQIQATIN ƏSAS MƏZMUNU

### 1. Aqrar sahədə investisiyaların maliyyələşdirilməsinin nəzəri əsaslarının tədqiqi

İnvestisiyaların maliyyələşdirilməsinin elmi-nəzəri məsələləri araşdırılarkən, aqrar sahədə investisiya fəaliyyətinin maliyyələşdirilməsinin forma və üsulları müqayisəli təhlil edilməli, istifadə olunmuş investisiyaların aqrar iqtisadiyyatın inkişafına təsiri qiymətləndirilməlidir. İnvestisiya qoyuluşlarının həyata keçirilməsinin zəruriliyini müxtəlif amillər şərtləndirə bilər. Lakin, ümumilikdə bu amilləri əsasən aşağıdakı üç qrupa bölmək olar: mövcud

maddi-texniki bazanın yeniləşdirilməsi, istehsal fəaliyyəti dairəsinin genişləndirilməsi, yeni fəaliyyət növlərinin mənimsənilməsi. Həmin amillər ayrı-ayrılıqda spesifik xüsusiyyətlərə malik olsalar da, son nəticədə onlar istehsal fəaliyyətinin artan tələbatının ödənilməsinə yönəlik proporsionallığın təmin olunmasına imkan yaradır.

İnvestisiyanın xüsusi əhəmiyyəti istehsalın perspektiv strukturunun formalaşdırılmasında və sosial məqsədlərin həyata keçirilməsində özünü göstərir. Belə ki, dövlətin həyata keçirdiyi investisiya siyasəti kapital qoyuluşlarının prioritet istiqamətlərini müəyyən edir. Məhz bu amil iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsində başlıca rol oynayır. Eyni zamanda ölkə iqtisadiyyatının dinamik və tarazlı inkişafının, onun ayrı-ayrı regionlarının, sahələrinin və yeni mülkiyyət formalarının təşəkkülü investisiya siyasətinin xarakteri ilə müəyyən olunur.

İnvestisiyaların müxtəlif kriteriyalara görə fərqləndirilməsi aşağıdakı sxemə uyğun aparılır (şəkil 1).




***Şəkil 1. İnvestisiyaların müxtəlif kriteriyalara görə təsnifləşdirilməsi***

Digər qrup iqtisadçılar investisiyaları, investisiya obyektinə görə, investisiya yatırımında iştirak xarakterinə görə, investisiya-qoymanın dövriliyinə görə, investtisiya resurslarının mənbəyinə görə və regional səviyyəsinə görə təsnifləşdirirlər (şəkil 2).




***Şəkil 2. İnvestisiyaların təsnifləşdirilməsi əlamətləri***

İnvestisiya obyektinə görə V. Kern investisiyaları aşağıdakı kimi təsnifləşdirir (şəkil 3).

İnvestisiya fəallığı dövrünü yaşayan Azərbaycan Respublikası üçün milli iqtisadiyyatın müxtəlif sahələrinə, xüsusilə kənd təsərrüfatına investisiyaların maliyyələşdirilməsinin nəzəri-metodoloji problemlərininin ətraflı tədqiq edilməsi böyük praktiki əhəmiyyətə malikdir. Bu, hər şeydən əvvəl, Azərbaycan iqtisadiyyatına, xüsusilə onun neft-qaz sektoruna külli miqdarda investisiya qoyuluşları ilə, qeyri-neft sektorunun prioritet inkişafına yönəlik investisiya proseslərinin intensivləşməsi ilə əlaqədardır.




***Şəkil 3. İnvestisiyaların obyektə görə təsnifatı***

## 2. İnvestisiyaların maliyyələşdirilməsi mənbələrinin səciyyəsi və onların aqrar iqtisadiyyata təsirinin qiymətləndirilməsi

Aqrar sahənin dövlət maliyyələşdirilməsinin dolayı vasitəsi kimi kənd təsərrüfatında əmtəə istehsalçılarının vergidən azad edilməsi dayanıqlı inkişafın səmərəli istiqamətidir. Kənd təsərrüfatı inkişaf etdikcə sahədə məhsul istehsalçılarına təqdim olunmuş vergi güzəştlərinin məbləği artmış olur. Belə ki, həmim məbləğ 1999-cu ildə 56,8 milyon manat, 2000-ci ildə 63,7 milyon manat, 2005-ci ildə 102,6 milyon manat, 2010-cu ildə, ilkin məlumata görə 200 milyon manat təşkil etmişdir. Qeyri-neft bölməsinin inkişafında ayrı-ayrı sahələrin qarşılıqlı əlaqəsi mühüm rol oynayır. Yığımın az olduğu, onun investisiyaya transformasiyasının ləng getdiyi kənd təsərrüfatında investisiyanın maliyyələşdirilməsində neft və qeyri-neft bölməsindəki sahələrarası əlaqələrin xarakteri həlledici rola malikdir.

Hal-hazırda bir neçə beynəlxalq təşkilat ölkədə aqrar bazar münasibətlərinin inkişafında yaxından iştirak edir. Bunlardan Dünya Bankını, Avropa Yenidənqurma və İnkişaf Bankını, Avropa Birliyini və s-ni göstərmək olar. Bu təşkilatlardan əksəriyyəti kənd təsərrüfatının dayanıqlı inkişafına yönəlik investisiya layihələrinin maliyyələşdirilməsində yaxından iştirak edirlər. Aqrar sahədə özünümaliyyələşdirmə çox da böyük olmayan investisiya layihələrinin reallaşdırılmasında istifadə olunur.

Aqrar sahədə investisiyaların maliyyələşdirilməsində istiqrazlardan istifadə təcrübəsi postsovet ölkələri üçün xarakterik olmasa da, onun yaxın perspektivdə daha geniş tətbiq ediləcəyi gözlənilir. Aqrar-ərzaq kompleksində səhmdar cəmiyyətlərin əhəmiyyətli xüsusi çəkiyə malik olması investisiyaların maliyyələşdirilməsinin məqbul institusional mühitinin formalaşmasının mühüm əlamətidir.

Dövlət tərəfindən aqrar sahənin inkişafına yönəldilmiş investisiyaların maliyyələşdirilməsi aşağıdakı formalarda həyata keçirilir: yüksək effektivli investisiya layihələrinə maliyyə yardımı, müəyyən proqram əsasında maliyyələşdirmə, layihələrin dövlətin xarici dəstəyi ilə maliyyələşdirilməsi. Multiplikasiya effekti ÜDM-in artımına güclü təsir göstərdiyi halda, onun məşğulluq və yoxsulluq səviyyəsinə də təsiri daha çox hiss olunur. Karbohidrogen fəaliyyəti geniş həcmli əmək tələb etmir. Neft sektoru ÜDM-in üçdə birini təşkil etməsinə baxmayaraq, onun məşğulluğun ümumi həcmindəki payı cəmi bir faizdir. 2000–2010-cu illərdə məşğul olan əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü cədvəl 1-də verilmişdir.

***Cədvəl 1.***

***Məşğul olan əhalinin iqtisadiyyatın sahələri üzrə bölgüsü (min nəfər)***

| | *2000* | *2005* | *2010* |
|---|---|---|---|
| İqtisadiyyat üzrə, cəmi | 3704,5 | 3868,7 | 4329,1 |
| Mədənçıxarma sənayesi | 39,6 | 40,3 | 41,5 |
| Emal sənayesi | 169,3 | 188,9 | 208,9 |
| Tikinti | 153,6 | 201,8 | 287,5 |
| Kənd təsərrüfatı | 1517,2 | 1498,6 | 1720,0 |
| Topdan və pərakəndə ticarət | 626,1 | 604,5 | 531,7 |
| Nəqliyyat, anbar təsərrüfatı, rabitə və s. | 167,0 | 166,3 | 179,1 |

**Mənbə:** Azərbaycanın Statistik göstəriciləri. Bakı 2011.

Istifadə olunmuş investisiyaların milli, o cümlədən aqrar iqtisadiyyatın inkişafına təsirinin qiymətləndirilməsi prosesində neft gəlirlərinin dayanıqlı inkişafa təsiri diqqət mərkəzində olmalıdır.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il

tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda (2004-2008-ci illər) aqrar regionlarda iqtisadiyyatın inkişafını sürətləndirən amillər, bununla bağlı dövlət siyasətinin və kənd təsərrüfatına dövlət dəstəyinin müəyyən edilmiş əsas istiqamətləri milli iqtisadiyyatın diversifikasiyalı inkişaf konsepsiyasını reallaşdırmaqla neftdən asılılığı azaltmaqda və onu aradan qaldırmaqda müstəsna əhəmiyyət kəsb edir.

2009-2013-cü illər üçün regionların inkişafı üzrə Dövlət Proqramında digər vəzifələrlə yanaşı aqrar sahədə islahatların ikinci mərhələsini sürətləndirmək, bunun üçün regionlarda kənd təsərrüfatı işçilərinə kömək məqsədilə müxtəlif servis mərkəzləri yaratmaq, toxumçuluq bazasını genişləndirmək, texnika ilə təminatı yaxşılaşdırmaq və digər zəruri tədbirləri həyata keçirmək nəzərdə tutulur. Görülmüş və davam etdirən tədbirlər qeyd olunan baxımdan həlledici rol oynayır.

## 3. Azərbaycanda investisiya investisiya mühitinin formalaşması xüsusiyyətləri

Ölkədə təşəkkül tapmış əlverişli investisiya mühiti və aqrar sahədə onun formalaşması vəziyyəti, investisiyaların maliyyələşdirilməsinin struktur təhlili, kənd təsərrüfatında investisiya layihələrinin kreditləşdirilməsinin mövcud vəziyyəti bir sıra problemlərin təxirəsalınmaz həllini tələb edir.

Risklər və onların sığortalanması investisiya mühitini formalaşdıran başlıca amillərdəndir. Sığorta risklərinin konkret siyahısı müəyyən edilərkən müqavilədə investisiyaları qəbul edən ölkənin siyasi və iqtisadi vəziyyəti, onun potensial maliyyə imkanları, iqtisadiyyatın inkişaf səviyyəsi, ümumi daxili məhsulun miqdarı, dövlətin daxili və xarici borclarının həcmi, onun quruluşu, borcların vaxtında ödənilmə müddəti, inflyasiyanın dərəcəsi, investisiya obyektlərinin coğrafi cəhətdən yerləşməsi, sığorta müddəti və s. amillər nəzərə alınır.

Azərbaycanda investisiya mühitinin təhlili aşağıdakı üstünlükləri xülasə etməyə imkan verir:

- əlverişli cografi mövqe ölkəmizdə istehsal olunan məhsul-

ları Orta Asiyaya, İrana və digər körfəz ölkələrinə, Rusiyaya ixrac etməyə, bu ölkələrin şirkətləri ilə iş birliyi qurmağa imkan verir və Azərbaycanı investisiya cəlbediciliyi cəhətdən əhəmiyyətli edir;

- Azərbaycandakı daxili ictimai-siyasi vəziyyətin sabit olması, ölkəmizin atəşkəs rejiminə əməl etməsi nəticəsində xarici-siyasi vəziyyətindəki nisbi sabitlik investisiya riskini azaldan amil kimi çıxış edir;

- 1995-ci ildən başlayaraq iqtisadiyyatda sabit artım, inflyasiyanın qəbul ediləcək səviyyəsi, özəlləşdirmə prosesinə başlanması, bank sektorundakı islahatlar, vergi siyasətində əlverişli mühitin yaradılması sahəsində aparılan işlər, iqtisadi mühiti əlverişli edir.

İnvestisiyaların struktur təhlili onların müxtəlif əlamətlər üzrə təsnifatı məsələləri nəzərə alınmaqla həyata keçirilməlidir. Bu baxımdan, həmin əlamətlərin sahə xüsusiyyətlərinin, məhz kənd təsərrüfatının sahə xüsusiyyətləri baxımından dəqiqləşdirilməsinə böyük ehtiyac vardır.

Maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyaların strukturu aşağıdakı kimidir (cədvəl 2).

***Cədvəl 2.***

***Azərbaycanda maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyaların strukturu(%-lə)***

| | ***2000*** | ***2005*** | ***2010*** |
|---|---|---|---|
| Cəmi investisiyalar | 100 | 100 | 100 |
| Ondan büdcə vəsaiti hesabına | 2,9 | 3,4 | 32,9 |
| Əhalinin şəxsi vəsaiti hesabına | 4,7 | 5,7 | 3,8 |
| Müəssisə və təşkilatların öz vəsaiti hesabına | 71,2 | 82,6 | 50,9 |
| Bank kreditləri | 13,6 | 6,4 | 6,5 |
| Büdcədənkənar fondların vəsaitləri | 0,9 | 1,3 | 5,7 |
| Sair vəsaitlər | 6,7 | 0,6 | 0,2 |

**Mənbə:** Azərbaycanın Statistik göstəriciləri .Bakı, 2011

Bankların aqrar sahəyə marağı arzu olunan səviyyədə deyildir. Belə vəziyyət həm kreditləşmənin girov mexanizmində kənd təsərrüfatı istehsalçılarının mənafeyini nəzərə almağın çətinlikləri ilə və ixtisaslaşdırılmış bankın olmaması ilə əlaqədardır. Əlbəttə,

aqrar sahəyə xidmət edən ixtisaslaşdırılmış bankın yaradılması investisiyaların maliyyələşdirilməsi baxımından kənd təsərrüfatında qarşıya çıxan problemin həlli üçün vasitələrdən yalnız biridir və onun səmərəli fəaliyyəti mühit yaradan çoxsaylı amillərdən asılıdır.

Əsas kapitala yönəldilmiş vəsaitin texnoloji quruluşu milli, o cümlədən, aqrar iqtisadiyyatın modern və innovativ yönümünün qiymətləndirilməsi baxımından önəmli informasiya mənbəyidir. Belə ki, Azərbaycanda əsas kapitala yönəldilmiş vəsaitin, yekuna görə faizlə hesablanmış texnoloji quruluşunun təhlili maşın, avadanlıq, alət və inventarların payı istehsal fəallığını səciyyələndirir

Azərbaycan Respublikasında kənd təsərrüfatı və qida məhsulları istehsalında əsas kapitala yönəldilmiş investisiyalar 2000-2010-cu illər ərzində dəfələrlə artmış, daxili mənbələr hesabına investisiyalar daha yüksək templə artmışdır (cədvəl 3).

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın inkişafında əsas kapitala yönəldilmiş xarici investisiyanın məbləğində azalma müşahidə edilmişdir.

***Cədvəl 3.***

***Azərbaycanda kənd təsərrüfatı və qida məhsulları istehsalında əsas kapitala yönəldilmiş daxili və xarici vəsaitlər, mln. manatla***

| | *2000* | *2005* | *2010* |
|---|---|---|---|
| Daxili vəsaitlər, cəmi | 460 | 2105 | 7499 |
| O cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 2 | 25 | 430 |
| Qida məhsulları istehsalı | 3 | 19 | 26 |
| Xarici vəsaitlər, cəmi | 508 | 3665 | 2407 |
| O cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 5 | 16 | 1 |
| Qida məhsulları istehsalı | 2 | 9 | 1 |

**Mənbə:** Azərbaycanın Statistik göstəriciləri. Bakı, 2011

Ölkədə kənd təsərrüfatı və qida məhsulları istehsalında əsas kapitala yönəldilmiş məcmu investisiyaların multiplikativ effektini nəzərə almaq zəruridir. Digər tərəfdən kənd təsərrüfatı mənşəli

qida məsullarının son istehlakçıya çatdırılması prosesinin maliyyə təminatı göstəriciləri də struktur təhlilinə cəlb edilməlidir.

Postsovet ölkələrində banklar geniş miqyasda aqrar iqtisadiyyata maliyyə xidmətlərinin təmin edilməsində, xüsusən də, kənd ərazilərində mövcud olan müəssisələr və az imkanlı əhali ilə münasibət qurmaqda o qədər də maraqlı deyillər. Bankların regional şəbəkəsi kifayət qədər geniş yayılmamışdır. Azərbaycanda da vəziyyət analojidir. Deyək ki,banklar şəbəkəsinin paytaxt Bakıdan kənar ərazilərdə 100-dən az filialı təmsil olunmuşdur.

**4. Sahədə investisiyaların kreditləşdirilməsinin mövcud vəziyyəti və inkişaf meyilləri**

Fəaliyyətdə olan kredit birliklərinin möhkəm portfelə və kreditlərin yüksək qaytarılma səviyyəsinə malik olması, müvafiq orqan tərəfindən kreditlərin qaytarılma müddətlərinə ciddi nəzarət edilməsi zəruridir. Respublikada kredit birlikləri sisteminin dayanıqlığını təmin etmək, onun maliyyə vəziyyətinə nəzarət etmək və fəaliyyətini tənzimləmək üçün Mərkəzi Bank kredit birliklərinin monitorinqi meyarlarına adekvat prudensial normaları təyin etmişdir.

Araşdırmalar göstərir ki, 2010-cu ilin sonuna kredit birlikləri üçün faiz dərəcələri bazarın vəziyyətinə müvafiqdir. Əksər borcalan qrupları üçün subkreditlər Mərkəzi Bankın mərkəzləşdirilmiş hərrac dərəcəsi üstəgəl 15 faiz dərəcəsi ilə verilmişdir. Ssudalar regionlarda dayanıqlı kənd təsərrüfatı və alternativ fəaliyyət üçün tərtib olunmuş biznes planlar əsasında verilir. Hazırda kənd təsərrüfatı məhsulları istehsalçılarının müxtəlif mənbələrdən kredit almaq imkanları, bir qədər genişlənmiş, aqrar sahədə istehsal, emal və digər fəaliyyət növləri ilə məşğul olan qurumlar alternativ seçim imkanı əldə etmişlər. Araşdırmalar göstərir ki, hər hansı mənbədən, o cümlədən Dünya Bankından "Təsərrüfatların Özəlləşdirilməsi Layihəsi" və onun davamı olan "Revolver Fondu" hesabına kredit verilməsinin azalması, digər mənbələrdən vəsait ayrılması hesabına kompensasiya edilir.

Sahibkarlığa Kömək Milli Fondu (SKMF) vəsaiti hesabına 2010-cu ildə müvəkkil kredit təşkilatları tərəfindən maliyyələş-

dirilmiş layihələrin məbləğinin 75%-i regionların payına düşür. Özü də həmin layihələrin 86%-ə qədəri istehsal və aqroemal sahələrə yönəlmişdir. SKMF xətti ilə "Aqrarkredit" SKT tərəfindən son illər kənd təsərrüfatı sahələri üzrə ayrılan kreditlərin məbləği müsbət dinamikaya malik olmuşdur (cədvəl 4).

***Cədvəl 4.***

***2006-2010-cu illərdə Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) xətti ilə verilən kreditlər barədə məlumat (min manat)***

| *Kreditlər* | *2006* | *2007* | *2008* | *2010* |
|---|---|---|---|---|
| Bitkiçilik üzrə | 400 | 518 | 554 | 540 |
| Heyvandarlıq üzrə | 475 | 1765 | 2214 | 2310 |
| Ticarət, xidmət və s. | 255.0 | 959 | 824 | 613 |

Kənd təsərrüfatında investisiya layihələrinin kreditləşdirilməsi prosesində regional xüsusiyyətlər diqqətdən kənarda qalmamalıdır. Belə ki, “Regionun sosial-iqtisadi inkişafının məqsədləri kimi gəlirlərin artırılması, təhsilin, qidalanmanın və səhiyyənin yaxşılaşdırılması, yoxsulluq səviyyəsinin azaldılması, ətraf mühitin sağlamlaşdırılması, imkanların bərabərliyi, şəxsi azadlıqların genişləndirilməsi, mədəni həyatın zənginləşdirilməsi göstəricilərindən istifadə olunur. Bu məqsədlərdən bəziləri identik olmalarına baxmayaraq, müəyyən şəraitlərdə əhəmiyyətli dərəcədə fərqlənə də bilərlər.

Kənd təsərrüfatının intensiv inkişafında ayrı-ayrı regionların unikal potensialının reallaşdırılması imkanları və intensivləşmə istiqamətləri müəyyənləşdirilərkən, yuxarıda qeyd edilənlərlə yanaşı istehsal və sosial infrastrukturun formalaşma və modernləşmə səviyyəsi, kənd ərazilərində təşəkkül tapmış əmək vərdişləri, qeyri-kənd təsərrüfatı fəaliyyəti, regional sənaye potensialı, su ilə təminat, iri şəhərlərə qədər olan məsafə və i.a. nəzərə alınmalıdır.

**5. Aqrar sahədə investisiya cəlbediciliyi və investisiya fəaliyyətinin maliyyələşdirilməsinin perspektivləri**

İnvestisiyaların maliyyələşdirilməsinin ümumi perspektivləri aqrar sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi və investi-

siya fəaliyyətinin maliyyələşdirilməsi imkanlarını və investisiya fəaliyyətinin maliyyələşdirilməsinin prioritet istiqamətlərini əsaslandırarkən nəzərə alınmalı aparıcı amillərdir. Kənd təsərrüfatının investisiya layihələrinin icrasının monitorinqi investisiya fəaliyyətinin əsas istiqamətlərini və onların hər biri üzrə hesabat göstəricilərini müəyyən etməyə, proqramdan kənarlaşmanın səbəblərini aşkar etməyə, investisiyaların maliyyələşmədə aparılan düzəlişləri həyata keçirməyə imkan verməlidir. Eyni zamanda, kənd təsərrüfatında investisiya cəlbediciliyinin və iqtisadi fəallığın yüksəldilməsi imkanlarının aşkar edilməsi baxımından monitorinq, regional inkişaf proqramlarının nəticələrini qiymətləndirməyə imkan verən ilkin məlumat bazası yaratmalıdır.

Aqrar sahəyə yönəldilən investisiyaların mənfəətlilik səviyyəsi, hələ də, milli iqtisadiyyatın bir sıra sahələrinə nisbətən aşağıdır. Odur ki, sahənin investisiyaya olan tələbatının ödənilməsində qarşıya çıxan problemlərin aradan qaldırılması üçün, son illər sahəyə artan dövlət dəstəyi davam etdirilir. Bu baxımdan, zənnimizcə, aşağıdakı istiqamətlər prioritet sayıla bilər:

a) aqrar istehsalçıların maraqlarına cavab verməyən qiymət disparitetinin yumşaldılması üçün qiymət sisteminin təkmilləşdirilməsi, aqrar sahə üçün sənaye məhsulları istehsal edən müəssisələrə güzəştli fəaliyyət şəraiti yaradılması, modern aqrotexnologiyaların idxalına əlverişli rejimin qurulması kimi məsələlərin həlli;

b) yerli kənd təsərrüfatı istehsalının rəqabət qabiliyyətinin artırılması və ixrac potensialının dəstəklənməsi;

c) kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin artırılması, o cümlədən sahədə lizinqin əhatə dairəsinin genişləndirilməsi, kredit birliklərinin fəaliyyət mühitinin yaxşılaşdırılması, banklarının girov mexanizmində aqrar sahənin xüsusiyyətlərinin nəzərə alınması və s.

İnvestisiya fəaliyyətinin maliyyələşdirilməsi mənbələrinin araşdırılması hazırda çox mühüm əhəmiyyət kəsb edən məsələdir. Əsrin müqaviləsi sazişi bağlanıldıqdan sonra, artıq qeyd olunduğu kimi Azərbaycan iqtisadiyyatına qoyulan investisiyalar ilbəil artmağa başlamış və bu investisiyaların 90%-ini birbaşa xarici inves-

tisiyalar təşkil etmişdir. Ölkənin neftdən aldığı gəlirlər ilbəil artmağa başlayandan sonra artıq daxili mənbələr hesabına digər sahələrə, xüsusilə qeyri-neft sektorunun prioritet sahələrinə investisiya qoyuluşu həyata keçirilməyə başlandı. Həmin prosesdə həm dövlət və həm də yerli qurumlar fəal iştirak edirlər. Yaxın perspektivdə bu maliyyələşmə mənbələrinin proqnozlaşdırılması və yeni maliyyələşdirmə mənbələrinin tapılması aktual olaraq qalır.

Aqrar iqtisadiyyatın bugünkü səviyyəsi gələcəkdə kənd təsərrüfatının tarazlı inkişafının təmin edilməsinə zəmin yaradır. Ona görə xalq təsərrüfatı proporsiyalarının formalaşması məqsədi ilə investisiya fəaliyyətinin idarə edilməsinə, xalq təsərrüfatı sahələri arasında bölüşdürülən kaptital qoyuluşlarının səmərəli təşkil olunmasına diqqəti artırmaq tələb olunur. Bundan başqa, nəzərdə tutulmuş müddət ərzində bütün istehsal və xidmət obyektlərində resurslardan intensiv və səmərəli istifadə təmin edilməli, multiplikasiya effekti reallaşdırılmalıdır.

**6. Sahədə investisiya fəaliyyətinin maliyyələşdirilməsinin prioritetləri və investisiyalardan istifadə səmərəliliyinin yüksəldilməsi**

Aqrar iqtisadiyyatın inkişafının sahələrarası prioritetlərini seçəndə struktur-investisiya siyasətinin həyata keçirilməsi zamanı tarazlı yanaşmaya üstünlük verilməlidir. İnvestisiya axınlarının dünya bazarında "müqayisəli üstünlük" xassəli məhsulları olan aqrar-sənaye sahələrinə yönəldilməsi ixrac yönümlü inkişaf strategiyasının əsasını təşkil edə bilər.

Belə strategiya xarici kapitalı fəal cəlb etməklə və daxili maliyyə mənbələrindən maksimal istifadə etməklə bərabər, beynəlxalq aqrar-sənaye ixtisaslaşması və kooperasiyasına əsaslanaraq, daxili bazarın tam təminatına və strukturunun dəyişdirilməsinə nail olmaq olar. İxrac yönümlü aqrar sənayenin inkişafının sürətləndirilməsinin yuxarıda göstərdiyimiz istiqamətinə alternativlər də vardır. Belə ki, Azərbaycanda elə sahələr var ki, yerli xammal resursları hesabına və xaricdən heç bir komponent idxal etmədən son məhsulun istehsalı imkanına malikdir.

İnvestisiya qərarlarının qəbulunda diqqət mərkəzində olmalı

əsas məsələ təklif olunmuş investisiyanın həcmi ilə gələcəkdə geri qayıdan pul kütləsinin həcmi arasındakı fərqin müəyyənləşdirilməsidir.

İnvestisiya sahəsində dövlətin iqtisadi fəaliyyətinin səmərəliliyini qiymətləndirmək üçün səbəb-nəticə əlaqələrini blok-sxemdə əks etdirmək olar (şəkil 4).




***Şəkil 4. İnvestisiya sahəsində dövlətin iqtisadi fəaliyyətinin səmərəliliyini qiymətləndirmək üçün səbəb-nəticə əlaqələrinin əks etdirilməsi***

Şəkildə makroiqtisadi göstəricilərin qarşılıqlı əlaqələri A və V əsas blokunu əhatə edir: blok A son tələbi xarakterizə edən göstəricilər sistemini, V bloku isə qiymətləri, əməkhaqqını və məşğulluğu formalaşdıran göstəriciləri xarakterizə edir. Təqdim olunan sxem makroiqtisadi inkişaf göstəricilərinin iqtisadiyyatın müxtəlif dövrlərinə uyğun olaraq sistemli təhlilini aparmağa, dövlətin investisiya sahəsində iqtisadi fəaliyyətinin səmərəliliyini qiymətlən-

dirməyə imkan verir.

Dissertasiya işinin əsas müddəaları müəllifin dərc olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. Sadıqov E.M. Azərbaycanda investisiyaların maliyyələşdirilməsinin struktur təhlili. İqtisad elmləri: nəzəriyyə və praktika. №1-2(2006). Bakı, 2007, 0,5 ç.v.
2. Sadıqov E.M. Kənd təsərrüfatının investisiya təminatı məsələləri. "Aqrar təhsil sistemində innovasiya texnologiyalarının tətbiqi və beynəlxalq əməkdaşlıq formaları" mövzusunda beynəlxalq elmi-praktik konfransın tezisləri. Gəncə, 2010, 0,35 ç.v.
3. Sadıqov E.M. Azərbaycanda investisiya mühiti və onun formalaşması xüsusiyyətləri. "Aqrar təhsil sistemində innovasiya texnologiyalarının tətbiqi və beynəlxalq əməkdaşlıq formaları" mövzusunda beynəlxalq elmi-praktik konfransın tezisləri. II cild. Gəncə, 2010, 0,35 ç.v.
4. Sadıqov E.M. Kənd təsərrüfatının investisiya təminatı məsələləri. "Aqrar iqtisadiyyat: müstəqilliyin 20 ilində" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, AzETKTİ və Tİ, 2011, 0,3 ç.v.
5. Sadıqov E.M. Uluslararası finansal raporlama standartları: doğudan yabançı sermaye yatırımlarını etkileyen faktor olaraq. "İkinci Uluslararası Türk Coğrafiyasında UTRS (Uluslararası finansal raporlama standartları)" sempoziumu. 16-17 haziran 2012. Trabzon. Bildiri kitabı (tam metin), İstanbul, Mumeyek Vakfı yayını, 04, 0,3 ç.v.
6. Sadıqov E.M. Azərbaycanda investisiya fəaliyyətinin prioritet istiqamətləri. "Aqrar iqtisadiyyat və innovasiyalı inkişaf" mövzusunda ümumrespublika elmi-praktik konfransının materialları (25 may 2012). Cəngə, 2012, 0,3 ç.v.
7. Sadıqov E.M. (Y. Həsənli ilə birgə) İnvestisiyaların iqtisadi artıma təsirinin qiymətləndirilməsi. İqtisad elmləri: nəzəriyyə və praktika. № 4, 2011 Bakı, 2012, 0,5 ç.v.
8. Садыгов Э.М. Воздействие прямых иностранных инвестиций в экономику страны инвестора и страны получателя.

Научное обеспечение развития АПК в условиях реформирования. СПб, Государственный Аграрный Университет, 2012, 0,4 п.л.

9. Садыгов Э.М. Пути инвестирования в зарубежную страну и дальнейший контроль над инвестициями. Саратовский Государственный Технический Университет. Саратов, 2012. 0,3 п.л.

10. Sadıqov E.M. İnvestisiyaların maliyyələşdirilməsinin səmərəliliyinin yüksəldilməsi. Bakı, Azərnəşr, 2012.144 səh., 9 ç.v.

**Садыгов Эмин Мирдамед оглы**

# Повышение эффективности финансирования инвестиции

## Резюме

Повышение эффективности инвестиций является решающим фактором развития национальной экономики, в том числе аграрного сектора. Решение проблем эффективного использования инвестиционных ресурсов в реальную экономику требует комплексных исследований. Этим и обусловлена актуальность темы предлагаемой диссертационной работы.

Во введении диссертационной работы обосновывается актуальность темы, излагается состояние изученности проблемы, определяются цели и задачи исследования, информационная база, научная новизна и практическое значение исследования.

В первой главе работы исследуются сущность и научно-теоретические проблемы финансирования инвестиций, формы и методы финансирования инвестиций, оценено влияние использованных инвестиций развитию аграрного сектора.

Во второй главе характеризована инвестиционная среда и уровень ее формирования в аграрном секторе, проведен структурный анализ финансирования инвестиций в Азербайджане, оценено сложившееся состояние кредитования инвестиционных проектов в сельском хозяйстве.

В третьей главе диссертации определены приоритетные направления по повышению инвестиционной привлекательности отрасли, перспективы финансирования инвестиционной деятельности, обоснованы основные направления повышения эффективности инвестиций.

В заключении сформулированы результаты и конкретные предложения, имеющие теоретическое и практическое значение.

**Emin Sadigov Mirdamad oglu**

# INCREASING THE EFFICIENCY OF INVESTMENT FINANCING

## RESUME

Increasing the efficiency of investment is crucial factor of development of the national economy, including agricultural sector. There is a need for an integrated research to address the issues related to effective use of investment resources in the real economy. This has contributed to the relevance of the proposed topic of the thesis.

In the introduction part of the thesis relevance of the topic is justified, the state of knowledge of problems is outlined; goals and objectives of the research as well as database, scientific novelty and practical significance of the study are identified.

In the first chapter the nature and scientific-theoretical problems of financing of investments, forms and methods of financing investments, the impact of investments used for the development of the agricultural sector are examined.

The second chapter is characterized by the investment environment and the level of its formation in the agricultural sector, a structural analysis of the financing of investments in Azerbaijan is conducted, the current state of credit investment projects in agricultural sector is assessed.

In the third chapter of the thesis priority areas to increase the investment attractiveness of the industry are identified, the prospects for investment financing, the main directions of improving the efficiency of investment are grounded.

In conclusion the results and proposals are formulated, which are both of theoretical and practical importance.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**САДЫГОВ ЭМИН МИРДАМЕД ОГЛЫ**

# ПОВЫШЕНИЕ ЭФФЕКТИВНОСТИ ФИНАНСИРОВАНИЯ ИНВЕСТИЦИИ

**Специальность:** 5308.01 – “Общая экономика”

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации по присуждению ученой степени**
**доктора философии по экономике**

**БАКУ – 2013**